# Nəsimini dabanından soydular... Bir şaqqasın ağ kəfənə qoydular...

Qaziantəp Böyükşəhər Bələdiyyəsinin başqanı Asun Gözəlbəy mədəniyyətə, ədəbiyyata, xalq yaradıcılığına bağlı adamdır. Atası Türkiyənin məşhur folklorşünaslarından biri olub.

Qaziantəp şəhəri Suriyanın Hələb şəhəri ilə qardaşlaşıb. Şərqin qədim iki şəhərinin bələdiyyələri arasında dostluq və əməkdaşlıq əlaqələri qurulub. Öyrəndik ki, sovet dönəmində (1974), 600 illiyi keçirilən ərəfədə böyük Azərbaycan şairi Nəsiminin Hələbdəki unudulmuş qəbrini məhz Türkiyə dövləti – Qaziantəp bələdiyyəsi düzəltdirmişdi.

Asun bəy Hələbə – Nəsiminin məzarına ziyarət etmək arzumuzu nəzərə alıb 15 nəfərlik qrupun Suriyaya birgünlük səyahətini təşkil etdi. Yol, gəzinti və gömrük xərclərimizi ödədi. Suriyanın sərhədinədək bizə qaziantəpli xanım bələdçilik etdi. Doğrudur, onun Nəsimi haqqında bilgisi çox deyildi. Lakin Türkiyədə ölməz şairimizin yaradıcılığı geniş öyrənilir. Hətta ötən il Ankarada beynəlxalq Nəsimi simpoziumu da keçirilib.

Nəsimi ocağına çatanadək onun həyatı barədə Azərbaycan alimlərinin araşdırmalarını yada saldım...

Azərbaycan və bütövlükdə Şərq dünyasının dahi mütəfəkkir şairi Seyid Əli İmadəddin Nəsimi 1370-ci ildə Şirvanda dünyaya gəlib. Bəzi tədqiqatçılar onun Bakıdan olduğunu iddia edirlər, bəziləri isə Nəsiminin doğum yeri kimi Şirvanşahların əski paytaxtı Şamaxını göstərirlər.

Şairin atası Seyid Məhəmməd Şirvanda yaxşı tanınan şəxsiyyətlərdən idi. Nəsiminin bir qardaşı da vardı. Onun Şamaxıda yaşadığı, Şah Xəndan təxəllüsü ilə şerlər yazdığı və hazırda bu adla tanınan qədim qəbristanlıqda basdırıldığı məlumdur.

Nəsimi Azərbaycan tarixinin ən ağır dövrlərində yaşayıb-yaratmışdır. Şairin vətəni cənubdan Əmir Teymurun, şimaldan isə monqol, Qızıl Orda xanı Toxtamışın qoşunları tərəfindən təcavüzə məruz qalmışdı. Məhz bu şəraitdə XIV əsrin səksəninci illərində Azərbaycanda yeni dini-fəlsəfi təlim olan hürufilik yaranıb intişar tapmağa başlayır. İmadəddin Nəsimi həmin təlimin ən parlaq və görkəmli təbliğatçılarından birinə çevrilir.

Hürufilik ərəb dilindəki "hüruf" (hərflər) sözündəndir. Bu təlimin ardıcılları ərəb və fars əlifbalarındakı 28 və 32 hərfi ilahiləşdirir və təsdiq edirdilər ki, bunlar olmadan nə Allahı, nə insanı, nə də əşyaları dərk etmək mümkün deyil. Əslində isə hürufizmin fəlsəfi və sosial məzmunu olduqca geniş və əhəmiyyətlidir.

Hürufiliyin banisi böyük Azərbaycan



**Nəsiminin heykəli** *(Bakı şəhərində)*

şairi və filosofu Fəzlüllah (Fəzl) Nəimi Təbrizi idi. Orta əsr müəlliflərinin əksər qismi belə bir yekdil fikir söyləyirlər ki, Fəzl özünün bu təliminin əsasını təqribən 1386-cı ildə Azərbaycanın paytaxtı Təbrizdə qoyub. Nəiminin həyatında hürufi hərəkatının mərkəzinə çevirdiyi Bakı şəhəri mühüm yer tutur. Onun əsas əsərləri, o cümlədən "Cavidannamə" ("Əbədiyyət haqda kitab"), "Cavidan-e Kəbir" ("Böyük əbədiyyət"), "Vəsiyyətnamə" kitabları Azərbaycanda, Bakıda yazılmışdı. Nəimi burada öz təlimini sürətlə təbliğ edir və çox keçmədən bu cərəyan bütün Azərbaycana, buradan da Yaxın Şərqin və Orta Asiyanın bölgələrinə yayılır. Nəimi hətta Teymuru da öz tərəfinə çəkmək istəyir, lakin tezliklə Teymur onu həbs edir və 1394-cü ildə Naxçıvan yaxınlığındakı Əlincə qalasında edam edirlər. Onun qəbri də oradadır. Lakin Fəzlüllah ömrünün sonunu irəlicədən görə bilmişdi və onun edam ərəfəsində yazdığı "Vəsiyyətnamə" əsəri həmfikirləri tərəfindən gələcək mübarizənin proqramı kimi qəbul edilir.

Nəiminin göstərişlərinə əməl edən hürufilər doğma yerləri tərk edərək, bütün Şərq ölkələrinə səpələnir və böyük mürşidin təlimini yayırdılar. Nəsimi də Türkiyə, Suriya, Misir və başqa ərəb ölkələrində olub hürufi ideyalarını təbliğ edirdi. Onun əsərlərindən məlum olur ki, şair Bakı, Bağdad, Bursa, Şamaxı, Hələb və başqa şəhərlərə səyahət etmişdir. Türkiyənin Bursa şəhərində o, Nizaminin "Xosrov və Şirin" poemasının ilk tərcüməçisi, Şeyxi təxəllüsü ilə tanınan şairlə, məşhur Bəktaşiyyə dərviş təriqətinin yaradıcısı və rəhbəri Hacı Bəktaş Vəli ilə yaxınlaşır. Nəsimi Anadolu əhalisi arasında böyük rəğbət və sevgi qazanır.

Yaxın şərq ölkələrinə səfərləri zamanı şair təqiblərə, təzyiqlərə və hətta "aylarla qaranlıq zindanlarda əl-qolu qandallanmış halda" saxlanmaqla həbslərə də məruz qalır. Ancaq bütün bunlar onu öz yolundan döndərmir. Filosof şairin alovlu şerləri geniş yayılır, bunların üzünü köçürərək əzbərləyir, bazar meydanlarında avazla oxuyurdular. Geniş yayılmış rəvayətə görə, şairin Suriyanın Hələb şəhərində edam olunmasına da elə məhz belə şeylər səbəb olmuşdur.

Deyirlər ki, şairin tələbələrindən olan bir gənc hürufi ustadın şerlərini başına yığılmış camaata oxuyurmuş. Onu tuturlar və Nəsimini xilas etmək naminə gənc şerləri özünün yazdığını bildirir. Onu dar ağacından asılmaqla edam cəzasına layiq görürlər. Bu zaman Nəsimi bazarda, yaxınlıqdakı pinəçi dükanında başmağını tikdirirmiş. Xəbər ona çatanda şair edam yerinə tələsir və özünü ələ verir. Onu əziyyətlə edam edirlər.

"Künüz-üz-zəhəb" adlı ərəb mənbəyində Nəsiminin 1447-ci ilə ▸







Hələbdə "Nəsimi küçəsi" və "Nəsimi ocağı" yazılan lövhələr



Nəsimi küçəsində yaşayanların soya adı Nəsimidir



təsadüf edən edamı barədə aşağıdakılar bildirilir: “Kafir Əli Nəsimi Yaşbəyin zamanında edam olundu. O vaxt bizim şeyx ibn xətib ən-Nasiri və ali qazi şeyx İzəddin Şəmsəddin ibn Əmin-üd-Dövlənin, ali qazi Fəthəddin əl-Maliki və ali qazi Şihabəddin əl-Hənbəlinin iştirakı ilə Əli əl-Nəsiminin işinə “Darül-ədl”də (“Ədliyyə sarayı”nda) baxıldı. O, bəzi ağılsızları həqiqət yolundan sapdırmış və onlar da allahsızlıq və küfrdə onun təsirinə düşmüşdülər. Bu barədə şəhərin qazi və ilahiyyat xadimlərinə ibn əl-Şanqaş Əlxanədan adlı birisi məlumat vermişdi.

Hakim ona dedi:

*-Əgər sən Nəsimi haqda söylədiklərini təsdiq eləyə bilsən, mən səni öldürmərəm.*

Nəsimi kəlmeyi-şəhadətini söyləyib (bu, həm də yalnız həqiqəti söyləyəcəyinə and içmək mənasına gəlir), özü haqqında deyilənləri təkzib etdi. Bu vaxt şeyx Şihabəddin ibn Hilal içəri girdi. O, məclisdə özünün fəxri yerini tutandan sonra sözə başladı:

*-Nəsimi allahsızdır və hətta tövbə etsə belə edam olunmalıdır. Niyə edam etmirsiniz?*

Əl-Maliki ondan soruşdu:

*-Sən fitvanı öz dəst-xəttinlə yazarsanmı?*

Şeyx: “Yazaram”, - dedi və fitvanı imzaladı.

Ancaq o biri hakimlər onunla razılaşmadılar. Əl-Maliki dedi: ▸






Məzar daşının üzərində ərəbcə yazılmışdır: "Din uğrunda şəhid olan Seyid İmadəddin Nəsimi."

*-Qazi və ruhanilər səninlə razılaşmırlar. Mən sənin fitvan əsasında bu insanı necə edam edə bilərəm?*

Yaşbəy dedi:

*-Mən onu tanımıram. Sultan mənə göstəriş verib ki, onun işi ilə maraqlanım. Gözləyək görək sultan bu barədə nə qərar çıxardır.*

Bununla da məclis dağılır. Nəsimi zindanda qalır. Onun işi barədə sultan Müəyyədə xəbər çatır. O əmr verir ki, Nəsiminin dərisini soyub, başqalarına ibrət dərsi olmaqdan ötrü cəsədini yeddi gün Hələbdə göz dağı eləsinlər, sonra qollarını və qıçlarını vurub Nəsiminin yoldan çıxardığı Əlibəy ibn Zülqədərə, onun qardaşı Nəsrəddinə və Osman Qarayoluğa göndərsinlər. Belə də edirlər. Bu adam kafir və gavur idi. Allah günahımdan keçsin, deyirlər, o həm də zərif şerlər yazırmış."

Dəhşətli edam vaxtı Nəsiminin göstərdiyi dözüm və mərdlik xalq arasında bir çox rəvayətlər doğurmuşdur. Deyilənlərə görə, son nəfəsinə qədər öz sözündən dönməmiş və "Ənəlhəq" ("Mənəm həqq, Mənəm Allah") deməkdən çəkinməmişdir. Hətta bu vəziyyətində belə özündə kütbeyin cəlladları sancmaqdan ötrü güc tapmışdı. Edamda iştirak eləyən müsəlman ruhanilərindən biri deyib:

*-Bu adam iblisdən də pisdir, onun qanından hara bir damla düşsə, odda yandırılmalı, qılıncla kəsilib atılmalıdır...*

Və elə həmin an allahdan olan kimi şairin isti qanından bir damcı onun barmağına düşür. Bunu görən kütlə müftinin barmağının kəsilməsini tələb edir. O isə işi belə görəndə canını qurtarmaqdan ötrü Qurana istinad edir:

*-Mən bu sözü yandığımdan dedim, Quranda belə şey yoxdur.*

Bu sözü eşidən Nəsimi sonralar zərb-məsələ çevrilmiş məşhur beytini söyləyir:

*Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar.*
*Gör bu miskin aşiqi sərpa soyarlar, ağrımaz.*

Başqa bir rəvayətə görə, Nəsiminin növbəti "Ənəlhəq" nidasından sonra ondan soruşurlar:

*-Sən necə Allahsan ki, saralırsan?*

Şair bu sözün də altında qalmır:

*-Qafil, -deyir,- sənin ağlın kəsmir ki, mən əbədiyyət səmasında doğan günəşəm. Günəş isə qürub edəndə rəngi saralır...*

Nəsimini Təbrizi nisbəsində təqdim edən İbn əl-İmad Hənbəli yazırdı: "O, hürufilərin şeyxidir, Hələbdə sakin idi, tərəfdarları çoxaldı, bidəti artdı, iş o yerə çatdı ki, Sultan onun öldürülməsini əmr etdi, boynu vuruldu, dərisi soyuldu, çarmıxa çəkildi..." ▪





Nəsimi nəslindən olanların və onun məsləkdaşlarının Ələvi üslubunda məzarları







...Bura qədər oxuduqlarınız araşdırıcıların böyük hürufi filosofunun faciəli ölümü haqqında qənaətləri idi. Olduğu kimi diqqətinizə çatdırmaqda məqsədimiz həmin hadisələri canlı şəkillərin fonunda və bu günün işığında saf-çürük etməyə imkan yaratmaqdır.

Doğrudur, tarix həm özünün hakimi, həm də vəkilidir. Onu ittiham etməyə, çıxardığı hökmü dəyişməyə heç kəsin gücü çatmaz. Bu günümüzün yeni tarix səhifələrini yaradanlar isə çönüb arxaya baxmalıdırlar. Nəsiminin mübarizəsi onlar üçün ibrət dərsinə çevrilməlidir.

Nəsimi Hələbdə ailə qəbristanlığında dəfn olunub. Camaat orani “Nəsimi ocağı” adlandırır. Sairin məzarı indiyə qədər müqəddəs sayılır. Buraya ziyarətə gələnlərə fəxri “Nəsimi” adı verilir.

Nəsimi ocağı Hələbin mərkəzində, Bakının İçəri şəhərini xatırladan hissədə yerləşir. Dar küçələrdən biri mütəfəkkir şairin adını daşıyır. Burada hər kəs özünü Nəsiminin soyundan sayır. Məzarı ziyarətə gələnlərin ardı-arası kəsilmir. Kiçik həyətdə ondan çox türk-ələvi qəbri var. Bir-birindən aralı iki alçaq binanın birində şairin mürid və mürşidinin (ikinci odada) sərdabələri qoyulub. Digər bina baxıcının (dediyinə görə, Nəsimi nəslinin nümayəndəsinin) yaşayış yeridir. Alçaq daxmanın bayır qapıya baxan divarında, daşlar üzərində bu ocağın Nəsimiyə və onun nəslinin davamçılarına məxsusluğu qeyd olunub. Nəsiminin sərdabəsi olan otaqda bir məzar da var. Deyirlər ki, burada onun fədakar müridlərindən biri uyuyur. O, şairin bədəni dörd hissəyə şaqqalanıb hər parçası görk olmaq üçün Hələb qalasının bir darvazasından asılandan sonra həyatını təhlükəyə ataraq ustadının bir şaqqasını qaçırda bilib. Mürid onu indiki Nəsimi ocağı yerləsən yerdə basdırıb və əqidədaşlarına vəsiyyət edib ki, öləndə onu ustadının ayaqları altında dəfn etsinlər. Bura hələ orta əsrlərdə müqəddəsləşdirilib.

Mənəvi aləmində iki dünyanı yerləşdirə bilsə də, bu cahanda öz cismi üçün bir qarış torpaq tapmayan Nəsimi Allah və əqidəsi uğrunda şəhid oldu. Onun ideyaları çox ürəklərə yol tapdı, qoca Şərqi silkələyib yuxudan oyatdı. Amma əsrlərin axarında şərqlilər yenə şeytana uyub məst oldular. Bilmədilər ki, dünya Allaha sığınanların hamısının məskənidir, həmişə dolub boşalmağındadır. Oradan həmişəlik köçüb gedənlər yaxşı-pis ad qoya biliblər, apardıqları isə heç kəsə bəlli deyil. İnsanın əsas əbədi məkanı isə tanrıya yaxın yerlərdir. O yerlərin yolunu İsa peyğəmbər, Mənsur Həllac, Nəsimi kimilər nişan verməyə qadir idilər. İsa peyğəmbəri çarmıxa çəkdilər, Mənsur Həllacı dar ağacından asdılar, Nəsiminin dərisini soyub şaqqaladılar. Dünya bələdçilərsiz qaldı.

Bəlkə də Nəsiminin ruhu uğrunda vuruşduğu məqama çatıb. Yenə dərd elə dünyada qalanlarındı....